**Azərbaycan Respublikası Prezidentinin**
**2008-ci il "6" oktyabr tarixli 3072 nömrəli**
**Sərəncamı ilə təsdiq edilmişdir.**

# Azərbaycan Respublikasında kitabxana - informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə

# Dövlət Proqramı

## 1. Ümumi əsaslar

### 1.1. Mövcud vəziyyət

Tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, nəsildən-nəslə çatdırılmasında və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi bu sahədə əsaslı islahatların aparılmasını, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsini, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsini, elektron məlumat banklarının yaradılmasını, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir və bütün bunlar mədəniyyət sahəsində dövlət siyasətinin əsas prioritetlərindəndir.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin kitabxana şəbəkəsində müxtəlif formada 40 milyon nüsxəyə yaxın informasiya daşıyıcıları və digər ənənəvi sənədlər qorunub saxlanılır. Son illər ərzində ölkədə kitabxana işinin inkişafı sahəsində bir sıra mühüm sənədlər qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli 56 nömrəli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli 562 nömrəli sərəncamları ilə təsdiq edilmiş siyahı üzrə latın qrafikası ilə nəşr olunmuş kitablar ölkənin bütün kitabxanalarına hədiyyə edilmişdir. Hazırda bu istiqamətdə işlər davam etdirilir. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər Proqramı", "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)", "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" kimi mühüm sənədlərdə kitabxana-informasiya sahəsinin inkişafı və modernləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulmuşdur.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə baş verən hadisələr kitabxanaların da fəaliyyətinə mənfi təsir göstərmiş, kitab nəşri və kitab təchizatı sistemi tamamilə iflic vəziyyətinə düşmüş, onların maddi-texniki bazasının olduqca zəifləməsinə gətirib çıxarmışdır. Bütün bunlar kitabxana sahəsinin tənəzzülünə səbəb olmuşdur. Nəticədə kitabxanalar real və potensial oxucularını itirmiş, xeyli sayda kitabxanalar bağlanılmış, əksəriyyəti oxucu tələbatını ödəyə bilməmiş, mövcud ştat vahidləri ixtisar edilmişdir. 1990-cı ildə respublika üzrə kütləvi kitabxanaların kitab fondu 45,3 milyon, 2002-ci ildə 36,9 milyon, 2003-cü ildə 36,8 milyon nüsxəyə enmişdir. 2004-cü ildə isə bu göstərici 36,5. milyon, nüsxə təşkil etmişdir. Bunun əsas səbəbi Ermənistan silahlı qüvvələri tərəfindən respublika ərazisinin 20 faizinin işğal olunması nəticəsində 9 Mərkəzləşdirilmiş Kitabxana Sisteminin, 927 kitabxananın tamamilə məhv edilməsi, kitabxanaların yeni nəşrləri almaq üçün vəsaitlə təmin edilməməsi, habelə kitabxana fondlarından məzmunca əhəmiyyətini itirmiş və mənəvi cəhətdən köhnəlmiş kitabların çıxarılması olmuşdur.

Azərbaycan Respublikasında 12 mindən çox müxtəlif tipli kitabxananın daxil olduğu geniş kitabxana-informasiya şəbəkəsi mövcuddur. Bu şəbəkəyə yalnız kütləvi kitabxanalar deyil, həm də elmi-texniki, uşaq, gənclər, musiqi məktəblərinin, muzey və digər mədəniyyət və tədris müəssisələrinin, eləcə də müxtəlif təşkilatların tabeliyində olan kitabxanalar, o cümlədən 6 respublika əhəmiyyətli kitabxana, Bakı şəhərində 84 kitabxana və filialı, 72 şəhər və rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) daxildir. Azərbaycanın erməni işğalçıları tərəfindən zəbt olunmuş ərazilərində 927 kitabxana və kitabxana filialını özündə birləşdirən 9 rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 4 milyondan artıq kitab fondu məhv edilmişdir.

Azərbaycanşünaslığa dair qiymətli əsərlərin böyük hissəsi XIX əsrin əvvəllərindən Rusiyanın Moskva, Sankt-Peterburq, Kazan və digər şəhərlərinin kitabxanalarına aparılmışdır. Həmin əsərlərin əslinin, yaxud surətlərinin Azərbaycan kitabxanalarına qaytarılması zəruridir.

Respublikada ən mühüm sənəd və digər çap əsərlərinin sığorta fondunun yaradılmasına ehtiyac vardır. Belə fondlar sözügedən çap məhsullarının müxtəlif dövrlərdə sosial və təbii təsirlər nəticəsində tamamilə məhv olmasının qarşısının alınmasına, millətin tarixi yaddaşının qorunub saxlanılmasına xidmət edir.

Dünyanın qabaqcıl ölkələrində olduğu kimi (Fransada Pompidu, ABŞ-da Kennedi, Vaşinqton və s.), Azərbaycanda yaradılacaq Heydər Əliyev Mərkəzinin nəzdində də Heydər Əliyev Milli Kitabxana-İnformasiya Kompleksinin təşkili zəruridir.

Azərbaycan Respublikasında kitabxana-informasiya şəbəkəsinə daxil olan kitabxanaların 90 faizi müasir tələblərə cavab vermir. Bir neçə kitabxana istisna olmaqla, kitabxanaların əksəriyyəti yararsız vəziyyətdədir. Kitabxanaların bir çoxu qəza vəziyyətində olan uyğunlaşdırılmış və yardımçı binalarda fəaliyyət göstərir. Respublikanın rayonlarında kənd kitabxana filiallarının bir hissəsi şəxsi evlərdə yerləşir. Kənd və qəsəbə kitabxana filiallarının 79,2 faizinin sahəsi darısqal olduğundan, oxu zalları təşkil etmək qeyri-mümkündür. Bu səbəbdən əhalinin 66,8 faizi kitabxanalardan istifadə edə bilmir. Mingəçevir, Şəki, Naftalan, Sumqayıt, Yevlax, Şirvan şəhər, Ağcabədi, Astara, Beyləqan, Bərdə, Qazax, Qobustan, Zaqatala, Yardımlı, Lerik, Neftçala, Biləsuvar, Samux, Xaçmaz, Cəlilabad, Ucar, Kürdəmir və digər rayon kitabxanalarının müxtəlif sahələrə aid yeni nəşrlərlə təminatına, fondlarının mühafizəsinə, binalarının əsaslı təmirinə, avadanlıqla təmin edilməsinə və kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına ciddi ehtiyac vardır.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin kitabxana şəbəkəsinə daxil olan cəmi 29 müəssisədə orta hesabla 1-5 ədəd kompyuter vardır, 14 kitabxana (0,19%) İnternet xidmətindən istifadə edə bilir ki, bu təchizat da daimi və sürətli deyildir. Mədəniyyət və Turizm Nazirliyinin kitabxana şəbəkəsinə daxil olan cəmi 4 kitabxanada (0.07%) kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işinə başlanılmışdır. Tabeliyindən asılı olmayaraq, digər kitabxanalarda da (səhiyyə, təhsil, həmkarlar və s.) informasiya təminatı aşağı səviyyədədir.

Kitabxana-informasiya sahəsində həll olunmamış əsas problemlərdən biri də kitabxana fondlarının mühafizəsi və bərpası məsələsidir. Respublikada kitab fondlarının bərpa mərkəzləri yaradılmadığından, xüsusi əhəmiyyətli nəşrlər sıradan çıxır və mövcud fondlarda qoruna bilmir. Latın qrafikası ilə buraxılan yeni nəşrlərin elektron daşıyıcılara köçürülməsi vacib və təxirəsalınmaz məsələlərdəndir. Fondlarda saxlanılan nadir kitabların rəqəmli daşıyıcılara köçürülməməsi səbəbindən sözügedən kitablar alim və tədqiqatçılar, geniş oxucu kütləsi tərəfindən az istifadə edilir, digər tərəfdən isə qiymətli nəşr nümunələrinin və nadir kitabların saxlanılma şəraiti müvafiq normalara uyğun gəlmədiyindən, onlar təhlükə altındadır. Belə kitablar M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında, Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında, BDU-nun Elmi Kitabxanasında, Milli Arxiv İdarəsinin kitabxanalarında və digər kitabxanalarda saxlanılır.

Kitabxanaların beynəlxalq əlaqələr sahəsindəki fəaliyyəti müasir tələblərə cavab vermir. Ölkədə milli biblioqrafiyanın, milli formatın, elektron kitabxananın, toplu kataloqun,

korporativ kitabxana şəbəkələrinin olmaması dünya informasiya məkanında layiqli təmsil edilməyə imkan vermir.

Bu gün elektron kataloqlar Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Prezident Kitabxanası", M.F.Axundov adına Azərbaycan Milli Kitabxana, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Mərkəzi Aparatının kitabxanası, Azərbaycan Dillər Universitetinin kitabxanası, "Xəzər" Universitetinin Elmi kitabxanası, Qərb Universitetinin kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, Şamaxı rayon və Gəncə şəhər mərkəzi kitabxanaları istisna olunmaqla, digər kitabxanalarda yoxdur.

Kitabxana fondlarının tələbata uyğun, sistemli və məqsədli komplektləş-dirilməməsi daim yeniləşən informasiya axınında oxucu kontingentinin itirilməsinə, bütövlükdə əhalinin mütaliəyə marağının azalmasına səbəb olur. Respublikanın ən böyük kitabxanalarında belə kitabsaxlayıcıların vəziyyəti (istilik, siqnalizasiya, ventilyasiya və s. kommunikasiyalar) mövcud normalara cavab vermir.

Kitabxanaların maddi-texniki bazasının zəifliyi, əksəriyyətinin binalarının yararsız və qəza vəziyyətində olması, xidmət və komplektləşdirmə işinin lazımi səviyyədə olmaması, kadrların peşə hazırlığının aşağı olması, kitabxana işinə dair ədəbiyyatın və dövri nəşrlərin kifayət qədər çap etdirilməməsi, beynəlxalq əlaqələrin zəifliyi bu sahənin inkişafına maneçilik törədən əsas amillərdir. Bütün bunlar ölkə əhalisinin informasiya təminatı sistemində ciddi problemlər yaradır.

"Azərbaycan Respublikasında kitabxana - informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsində mövcud problemləri sistemli həllinə yönəldilmişdir.

## 1.2. Dövlət Proqramının məqsəd və vəzifələri

Dövlət Proqramının əsas məqsədi "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda, habelə digər müvafiq hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq, kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanılmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etməkdən ibarətdir. Bundan başqa kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün şəraitin yaradılmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı əsas vəzifələrin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir:

- informasiya cəmiyyəti quruculuğu şəraitində beynəlxalq standartlar, hüquqi qanunvericilik aktları, milli informasiyalaşdırma siyasəti əsasında ölkədə fəaliyyət göstərən kitabxanaların modernləşdirilməsi;
- köklü islahatların aparılması, kitabxana - informasiya resurslarının dünya məkanına inteqrasiyasının təmin edilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, idarələrarası koordinasiyanın təşkili;
- "İnformasiya cəmiyyəti", "Biliklər cəmiyyəti" Azərbaycan modelinin qurulması prosesinə yardım göstərilməsi;
- kitab nəşri, yayımı və fond komplektləşdirmə işini tənzimləyən, maraqlı tərəflərin mənafeyini ifadə edən "müəllif-nəşriyyat-kitabxana-oxucu" mexanizminin və infrastrukturunun təkmilləşdirilməsi;

- elektron informasiya fondlarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, “Azərbaycan ədəbiyyatının virtual kitabxanası”nın oxucuların istifadəsinə verilməsi;

- elektron kataloq və elektron kitabxanaların yaradılması işinin təmin edilməsi, onların müasir standartlar səviyyəsinə çatdırılması;

- kompyuterləşdirilmiş kitabxana infrastrukturunun qurulması, kitabxanaların yeni informasiya texnologiyaları ilə təchiz edilməsi;

- kitabxana fondlarının zənginləşdirilməsi, onların mühafizəsi və təhlükəsizliyinin təmin edilməsi;

- “Azərbaycanın kitab abidələri” dövlət reyestrinin hazırlanması, milli informasiya resurslarının elektron daşıyıcılara köçürülməsi;

- əhalinin bütün təbəqələrinə kitabxana-informasiya xidməti səviyyəsinin yüksəldilməsi;

- kitabxanaların kadr təminatının yaxşılaşdırılması, bu məqsədlə fasiləsiz peşə təhsilinin təşkili və ixtisasartırma sisteminin təkmilləşdirilməsi;

- kitabxana-informasiya işinin təkmilləşdirilməsi üçün müasir idarəetmə sisteminin tətbiqi;

- maliyyələşmənin təkmilləşdirilməsi, sahə üzrə ayrılan vəsaitlərdən səmərəli istifadəni təmin edən yeni iqtisadi münasibətlər sisteminin tətbiqi;

- kitabxana-informasiya sahəsində idarəetmənin müasir iqtisadi münasibətlərə və sosial iqtisadi şəraitə uyğunlaşdırılması;

- kitabxana-informasiya sahəsinə ardıcıl olaraq müxtəlif mənbələrdən əlavə maliyyə vəsaitlərinin cəlb edilməsi, yeni xidmət növlərinin inkişafı, xüsusən də onların regionlarda təşkili, kitabxanalarda təsərrüfat fəaliyyətinin həyata keçirilməsi, büdcədənkənar gəlir və xərclərin bərpa olunması, onların həcminin artırılması, kitabxanaçıların əməyində stimullaşdırıcı tədbirlərin müəyyənləşdirilməsi;

- Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyası, Avropa Milli Kitabxanaları İttifaqı, ABŞ Kitabxana Assosiasiyası, Elektron Kitabxanalar istifadəçilərinin Beynəlxalq Assosiasiyası və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi;

- kitabxana işi sahəsində elmi-tədqiqat və elmi-metodiki fəaliyyətin stimullaşdırılması, sahəyə aid ədəbiyyat nəşrinin genişləndirilməsi;

- kitabxana binalarının təmiri, müasir tipli yeni kitabxana binalarının inşası;

- respublika kitabxana-informasiya şəbəkəsinin yeni dislokasiya xəritəsinin işlənilməsi və müasir tələblərə cavab verməyən kitabxanalarla bağlı müvafiq tədbirlərin görülməsi;

- Azərbaycanda kitabxana-informasiya şəbəkəsinin modernləşdirilməsini təmin edən layihələrin işlənilməsi üçün dövlət və donor təşkilatların cəlb edilməsi;

- kitabxana-informasiya sahəsində dövlət siyasətinin prioritet istiqamətləri üzrə elmi araşdırmaların genişləndirilməsi və müvafiq nəşrlərin hazırlanması;

- kitabxanaların ictimai statusunun yüksəldilməsi, kitabxana-informasiya sahəsinə dövlət qayğısının gücləndirilməsi, habelə müxtəlif ictimai qurumlar, beynəlxalq təşkilatlar tərəfindən bu sahəyə diqqətin artırılması.

### 1.3. Dövlət Proqramının icrasının əsas istiqamətləri

Dövlət Proqramında nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi üçün aşağıdakı istiqamətlərdə işlərin aparılması nəzərdə tutulur:

- kitabxana fondlarının müasir komplektləşdirmə mexanizminin yaradılması, inkişafı və müasir informasiya daşıyıcıları ilə təmin edilməsi;

- kitabxanaların kompyuter və informasiya-proqram təminatı, respublika üzrə kompyuterləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin yaradılması və inkişafı;

- respublikanın milli–mədəni irsinin və informasiya ehtiyatlarının qorunması və gələcək nəsillərə çatdırılması;

- kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi, onun forma və məzmunca yeniləşdirilməsi;
- kitabxana şəbəkəsinin idarəetmə strukturunun təkmilləşdirilməsi, şəbəkənin optimallaşdırılması və kadr islahatlarının həyata keçirilməsi;
- kitabxana işi sahəsində elmi tədqiqatların aparılması, kitabların hazırlanması və nəşri;
- yeni kitabxana binalarının tikilməsi, onların, eləcə də fəaliyyət göstərən kitabxanaların maddi-texniki bazasının müasir dövrün tələblərinə uyğun möhkəmləndirilməsi;
- kitabxanaların beynəlxalq əlaqələrinin inkişafı, genişləndirilməsi və beynəlxalq tədbirlərin təşkili;
- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi.

### 1.4. Dövlət Proqramının maliyyə mənbələri

Proqramın maliyyə mənbələri aşağıdakılardır:

- dövlət büdcəsindən ayırmalar və qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

### 1.5. Gözlənilən nəticələr

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi aşağıdakı nəticələri əldə etməyə imkan verəcək:

- Azərbaycanda fəaliyyət göstərən kitabxanaların fond larının ənənəvi və müasir informasiya daşıyıcıları ilə tam komplektləşdirilmə mexanizminin yaradılması və bu işin davamlı şəkildə inkişaf etdirilməsi;
- xüsusilə dəyərli, nadir və əhəmiyyətli kitab və sənədlərin surətlərindən respublika sığorta fondunun və Azərbaycan kitabının toxunulmaz fondunun təşkil edilməsi;
- respublikanın milli-mədəni irsinin qorunması, elektron informasiya daşıyıcılarına köçürülməsi və nəsillərdən-nəsillərə çatdırılması, qiymətli və nadir nəşrlərin dövlət reyestrinin hazırlanması;
- kitabxana fondlarında saxlanılan müxtəlif qrafikada nəşr olunmuş qiymətli əsərlərin əlifbalarının konvertizasiya olunaraq oxucuların istifadəsinə verilməsi, azərbaycanşünaslığa aid fondların zənginləşdirilməsi;
- fövqəladə hallara hazırlığın yaxşılaşdırılıması;
- dünya informasiya sistemlərində Azərbaycan kitabxana resurslarının təbliği və beynəlxalq informasiya mübadiləsinin həyata keçirilməsi;
- əhalinin bütün təbəqələrinə kitabxana xidmətinin yaxşılaşdırılıması, bu xidmətin əhatə dairəsinin genişləndirilməsi, səmərəliliyinin artırılması, informasiya qıtlığının və rəqəmsal uçurumun aradan qaldırılıması;
- mövcud ştat vahidləri çərçivəsində, respublika kitabxana-informasiya şəbəkəsinin təkmilləşdirilməsi, kitabxanaların birləşdirilməsi və yenidən təşkili prosesinin həyata keçirilməsi, qənaət edilmiş vəsait hesabına əhaliyə səyyar xidmətin göstərilıməsi;
- kitabxana sisteminin maliyyələşdirilməsinin təkmilləşdirilməsi məqsədi ilə bu sahəyə ayrılan vəsaitin yeni iqtisadi münasibətlərə uyğun rasionallaşdırılması, subyektiv amillərin aradan qaldırılması, təminat normativinin maliyyələşdirmə prinsipi ilə müəyyən edilməsi, büdcədənkənar gəlirlərin artırılması;
- respublikada fəaliyyət göstərən kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilıməsi və kitabxanaların müasir informasiya texnologiyaları ilə təmin edilməsi.

**Azərbaycan Respublikası Prezidentinin**
**2008-ci il “6” oktyabr tarixli 3072 nömrəli**
**Sərəncamı ilə təsdiq edilmişdir.**

## Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planını

| Sıra №-si | Tədbirlərin adı | İcra müddəti (illər üzrə) | İcraçı təşkilatlar |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | **2.1. Kitabxana fondlarının müasir komplektləşdirmə mexanizminin yaradılması, inkişafı və müasir informasiya daşıyıcıları ilə təmin edilməsi** | | |
| 2.1.1. | “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində qeyd edilən kitabxanaların məcburi nüsxələrlə təmin edilməsi mexanizminin yaradılması (ənənəvi və müasir) | 2008-2009 | NK, MdTN, AMEA, TN, VN |
| 2.1.2. | Azərbaycanşünaslığı inkişaf etdirmək məqsədi ilə fondların ölkəşünaslığa və diyarşünaslığa dair materiallarla zənginləşdirilməsi | 2008-2013 | MdTN, AMEA, AO |
| 2.1.3. | Gözdən əlil insanların informasiya tələbatını ödəmək məqsədi ilə kitabxana fondlarının xüsusi nəşrlərlə komplektləşdirilməsi | 2008-2009 | NK, MdTN, YİHO, ƏƏSMN, AO |
| 2.1.4. | İşğal altında və cəbhə bölgəsində olan rayonların kitabxana fondlarının (onların müvəqqəti məskunlaşdığı ərazilərdə) bərpası | 2009-2010 | MdTN, QMKİDK İİN, YİHO, AO |
| 2.1.5. | Bakı şəhərində mövcud kitabxanaların bazasında 9 mərkəzləşdirilmiş kitabxana sistemlərinin yaradılması, şəhər və rayonlarda isə bir çox kitabxana filiallarının birləşdirilməsi | 2009 | NK, MdTN, YİHO |
| 2.1.6. | Ölkəşünaslığa (Azərbaycanşünaslığa) dair Rusiya Dövlət Kitabxanasında, Rusiya Milli Kitabxanasında, Kazan, Tbilisi şəhər və digər milli kitabxanalarda saxlanılan ədəbiyyatın (o cümlədən dövrü mətbuatın) müəyyənləşdirilməsi və onların çatışmayan nüsxələrinin Azərbaycan Respublikasına gətirilməsi məqsədi ilə layihələrin həyata keçirilməsi | 2010-2011 | MdTN, TN, XİN, AMEA, AO |
| 2.1.7. | Oxuculara verilən ədəbiyyatın tematik – tipoloji uçotunun təşkili, fəal və qeyri-fəal istifadə edilən nəşrlərin müəyyənləşdirilməsi, oxucuların informasiya tələbatının ödənilməsinə yönəldilmiş sorğuların keçirilməsi və əldə edilmiş nəticələr əsasında fondların komplektləşdirilməsi | 2008-2009 | MdTN, AMEA, TKNDK |
| 2.1.8. | Respublikanın bütün kitabxanalarının pasportlaşdırılması, respublika üzrə statistik göstəricilərin hazırlanması və nəşri, kitabxanalarda fondların komplektləşdirilməsinə dair monitorinqlərin keçirilməsi | 2009 | MdTN, DSK, TKNDK |
| | **2.2. Kitabxanaların kompyuter və informasiya-proqram təminatı, respublika üzrə kompyuterləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin yaradılması və inkişafı** | | |
| 2.2.1. | “Azərbaycan ədəbiyyatının virtual kitabxanası”nın yaradılması və oxucuların istifadəsinə verilməsi | 2009 | NK, MdTN, RİTN, TN, AMEA |

| | | | |
|---|---|---|---|
| 2.2.2. | Ulu öndər Heydər Əliyevin unikal dövlət və mədəni quruculuq təcrübəsinin, intellektual və mənəvi irsinin respublikanın və dünyanın rəqəmsal irs fondlarına daxil edilməsi | 2008-2009 | NK,<br>MdTN,<br>AMEA |
| 2.2.3. | Kitabxanalarda müasir informasiya texnologiyalarının tətbiqi, kompyuterləşdirilmiş kitabxana infrastrukturunun, elektron informasiya resurslarının və müxtəlif sahələr üzrə elektron kitabxanaların yaradılması | 2009-2010 | MdTN,<br>RİTN,<br>AMEA,<br>TKNDK |
| 2.2.4. | "Biliklər cəmiyyətinin Azərbaycan modeli" konsepsiyasının hazırlanması | 2009 | MdTN,<br>RİTN,<br>AMEA, AO |
| 2.2.5. | Bakı şəhərində fəaliyyət göstərən kitabxanaların veb-saytlarının yaradılması, onların İnternetlə təchiz edilməsi, telefon xətti olmayan kitabxanalara telefon xəttinin çəkilməsi | 2008-2009 | MdTN,<br>RİTN,<br>YİHO,<br>AO |
| 2.2.6. | Azərbaycan kitabxanalarının informasiya cəmiyyəti və vətəndaş cəmiyyəti institutları ilə birgə əməkdaşlığının həyata keçirilməsi | 2009-2010 | NK,<br>MdTN,<br>TKNDK |
| 2.2.7. | Mərkəzi kitabxanaların nəzdində əhalinin bütün təbəqələrinə pulsuz xidmət göstərən, müasir informasiya texnologiyaları ilə təmin olunmuş hüquq-informasiya mərkəzlərinin yaradılması (kitabxanaların mövcud ştat vahidləri çərçivəsində, ictimai əsaslarla) | 2008-2009 | MdTN,<br>YİHO,<br>AO |
| 2.2.8. | Yetkinlik yaşına çatmayan şəxslər üçün tərbiyə müəssisələrinin kitabxanalarında müasir kompyuter texnologiyaları ilə təmin olunmuş informasiya resurs mərkəzlərinin yaradılması (kitabxanaların mövcud ştat vahidləri çərçivəsində, ictimai əsaslarla) | 2009 | MdTN, ƏN, TN,<br>AQUPDK,<br>YİHO |
| 2.2.9. | "Azərbaycan ədəbiyyatı", "Azərbaycan tarixi", "Azərbaycan muzeyləri", "Qobustan", "Azərbaycanın turizm gözəllikləri" adlı elektron kitabxanaların yaradılması (mövcud kitabxanaların bazasında şəbəkə və ştat sayı dairəsində) | 2009-2010 | MdTN,<br>RİTN,<br>AMEA |
| 2.2.10. | Bir sıra rayon uşaq kitabxanalarında "Uşaq hüququ" informasiya mərkəzlərinin yaradılması (kitabxanaların mövcud ştat vahidləri çərçivəsində, ictimai əsaslarla) | 2008-2009 | MdTN,<br>AQUPDK,<br>YİHO |
| 2.2.11. | Azərbaycanın elektron kitabxanaları üçün Rusiyanın LİBNET Mərkəzindən rus və digər xarici dillərdə olan yeni ədəbiyyatların biblioqrafik təsvirlərinin alınması | 2009 | MdTN,<br>XİN,<br>AMEA,<br>TKNDK |
| 2.2.12. | Gözdən əlil insanların intellektual səviyyəsinin yüksəldilməsi məqsədi ilə respublika əhəmiyyətli və mərkəzi kitabxanaların nəzdində fəaliyyət göstərən informasiya mərkəzlərində xüsusi proqramlı kompyuterlərin quraşdırılması | 2009-2010 | MdTN,<br>ƏƏSMN,<br>YİHO,<br>AO |
| 2.2.13. | "Kitabxana fondları-regionun inkişafının əsas informasiya resursu kimi" mövzusunda dəyirmi masaların keçirilməsi | 2010-2011 | MdTN,<br>AMEA,<br>TKNDK |
| 2.2.14. | "Milli ədəbiyyat" müasir informasiya daşıyıcıları fondlarının yaradılması | 2008-2011 | MdTN,<br>YİHO,<br>AO |
| 2.2.15. | İnternetin mövcud veb-saytlarında Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti və incəsənəti haqqında informa-siyaların monitorinqi | 2010 | MdTN,<br>RİTN,<br>AMEA,<br>TKNDK |
| 2.2.16. | Azərbaycan kitabxanalarının dünyanın ən böyük | 2009-2010 | MdTN,<br>RİTN, |

| | | | |
|---|---|---|---|
| | kitabxanalarının məlumat bazalarına daxil olmasının və onların resurslarından istifadənin təmin edilməsi | | AMEA, TKNDK |
| 2.2.17. | İşğal olunmuş rayon kitabxanalarının vəziyyəti haqqında “Dağıdılmış sərvətlər, məhv olmuş kitabxanalar” adlı 3 dildə (Azərbaycan, rus, ingilis) materialların çap və elektron nəşrinin hazırlanması, veb-saytın yaradılması və internetdə yerləşdirilməsi | 2010 | MdTN, RİTN, QMKİDK, YİHO, AO |
| 2.2.18. | Rusiya Dövlət Kitabxanasının dissertasiya mərkəzinə daxil olmaq üçün virtual oxu zalının təşkili | 2009 | MdTN, AO |
| 2.2.19. | “Azərbaycan kitabxanaları” veb-portalının yaradılması | 2009 | MdTN, RİTN, TKNDK |
| 2.2.20. | Hüquq-informasiya mərkəzlərinin veb-portallarının yaradılması və onların informasiya təminatının təşkili | 2010 | MdTN, RİTN, TKNDK |
| 2.2.21. | Lerik və Yardımlı rayon mərkəzi kitabxanalarında “Ətraf mühit”, “Uzunömürlülər” məlumat bazalarının yaradılması və kitabxanaların veb-saytına əlavə edilməsi | 2010 | MdTN, ETSN, ƏƏSMN, AO |
| 2.2.22. | Azərbaycanın regionları üzrə “Qədim Bakı və bakılılar”, “Qədim Şuşa və şuşalılar”, “Qədim Bərdə və bərdəlilər”, məlumat bazalarının yaradılması və internet şəbəkəsində yerləşdirilməsi | 2011 | MdTN, YİHO, AO |
| 2.2.23. | Şəki-Zaqatala regionunda əhaliyə səyyar kitabxana xidmətinin göstərilməsi məqsədi ilə pilot layihələrinin həyata keçirilməsi | 2009 | MdTN, RİTN, YİHO, AO |
| 2.2.24. | Əhalinin operativ informasiya təminatı üçün tabeliyindən asılı olmayaraq, Bakı şəhəri və respublikanın digər şəhər və rayon mərkəzi, uşaq və gənclər kitabxanalarında yeni informasiya texnologiyalarının, habelə avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin tətbiqi və Azərbaycanda ən çox yayılan İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sisteminin sərlöhvə və sərlövhəaltı məlumatlarının Azərbaycan dilinə tərcüməsi | 2009 | MdTN, TN, İİN, MN, RİTN, AMEA, TKNDK |
| 2.2.25. | Respublika kitab fondunun, elektron sənədlərin toplu kataloqunun yaradılması, sənədlərin tammətnli bazaya birbaşa keçid texnologiyasının tətbiq edilməsi | 2011 | MdTN, RİTN, AO |
| 2.2.26. | “Azərbaycan ədəbiyyatı antologiyası: XIX-XX əsrlər” elektron məlumat bazasının və elektron nəşrinin hazırlanması | 2010 | MdTN |
| 2.2.27. | Şəki şəhərinin Mərkəzi Kitabxanasında “Azərbaycanın ipək diyarı” məlumat bazasının yaradılması | 2010 | YİHO, MdTN, AO |
| 2.2.28. | Bakı Musiqi Akademiyasının nəzdində mövcud ştat vahidləri çərçivəsində ictimai əsaslarla müasir multimedia tədris metodiki kompyuter mərkəzinin təşkili | 2009 | TN, RİTN, MdTN |
| 2.2.29. | Şəhər (rayon) mərkəzi kitabxanalarında, iri yaşayış massivlərində və qəsəbələrdə fəaliyyət göstərən kitabxanalarda elektron kitabxanaların, elektron kataloqların məlumat və təhsil portallarının yaradılması və internetdə yerləşdirilməsi | 2009-2010 | MdTN, RİTN, TN, TKNDK, AO |
| 2.2.30. | “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli və “2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə | 2008-2009 | MdTN, AO |

| | | | |
|---|---|---|---|
| | tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına əsasən nəşr olunan kitabların elektron kitabxanasının təşkili və İnternetdə yerləşdirilməsi | | |
| 2.2.31. | Azərbaycan-Türkiyə, Azərbaycan-Rusiya ilə birgə elektron kitabxanalarının yaradılması və "Sərhəddə görüş" layihəsinin həyata keçirilməsi | 2009-2010 | MdTN, XİN, AO |
| 2.2.32. | "Milli İnternet şəbəkəsinin hamisi-hifzedicisi (qoruyucusu)" simvolunun seçilməsi üzrə respublika müsabiqəsinin təşkili | 2009 | MdTN, RİTN, TN, AO |
| 2.2.33. | Kitabxanalarda kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması sahəsində kiçik qrantlar müsabiqəsinin təşkili | 2009-2010 | MdTN, TN, RİTN, AMEA, TKNDK |
| 2.2.34. | Regionlardakı kitabxanalar arasında "Ən yaxşı ictimai internet mərkəzi", "Ən maraqlı veb-sayt" mövzusunda respublika müsabiqəsinin keçirilməsi | 2008-2013 | MdTN, TN, RİTN, TKNDK |
| 2.2.35. | Elektron kitabxanaların respublika müsabiqəsinin keçirilməsi | 2009-2012 | MdTN, AMEA, RİTN, TN, TKNDK |
| 2.2.36. | "Kitabxana-bələdiyyə informasiya mərkəzi kimi" layihələrinin həyata keçirilməsi | 2008-2013 | NK, MdTN, ƏN (bələdiyyələrin iştirakının təşkilinə kömək göstərməklə) AO |
| 2.2.37. | Gözdən əlillərin informasiya təminatını yaxşılaşdırmaq məqsədi ilə xüsusi proqramların hazırlanması | 2008-2009 | MdTN, RİTN, ƏƏSMN, YİHO, AO |
| 2.2.38. | Azərbaycan kitabının milli biblioqrafiyasının hazırlanması və nəşri, dövlət kitabxanalarında mühafizə edilən XIX əsrin 20-ci illərində nəşr olunmuş ədəbiyyatın (kitab, qəzet və jurnalların) əlifbasının kiril qrafikasından latın qrafikasına çevrilməsinin həyata keçirilməsi və informasiya daşıyıcılarına köçürülməsi | 2009-2010 | MdTN, AO |
| 2.2.39. | Kitabxana fondlarında saxlanılan qramofon vallarının "Azərbaycanın səs irsi" adı ilə informasiya daşıyıcılarına köçürülməsi | 2011 | MdTN, AMEA |
| 2.2.40. | Azərbaycan Xalq Cümhuriyyətinin 90 illiyi ilə əlaqədar 1918-1920-ci illərdə nəşr edilən "Azərbaycan" qəzetinin mikrofilmləşdirilməsi və əlifbasının kiril qrafikasından latın qrafikasına çevrilməsinin həyata keçirilməsi | 2008-2009 | MdTN, AMEA, MAİ, AO |
| 2.2.41. | Azərbaycan Milli Avtomatlaşdırılmış Kataloqlaşdırma Formatının (AZMARC) yaradılması və ölkə kitabxanalarında tətbiqi | 2010 | MdTN, RİTN, TKNDK |
| 2.2.42. | UNİMARC formatının Azərbaycan dilinə tərcüməsi və nəşri | 2009-2010 | MdTN, TN, SMPDA, AMEA, AO |
| 2.2.43. | Azərbaycan Respublikasının kitab abidələrinin müəyyən edilməsi, informasiya daşıyıcılarına köçürülməsi və "Azərbaycanın kitab abidələri" adlı məlumat bazasının yaradılması | 2010 | MdTN, TN, AMEA, YİHO, TKNDK |

| | | | |
|---|---|---|---|
| 2.2.44. | Regionlarda kiçik və orta biznesin informasiyaya olan tələbatını ödəmək üçün mərkəzləşdirilmiş kitabxana sistemlərinin bazasında kitabxanaların mövcud ştat vahidləri çərçivəsində və ictimai əsaslarla informasiya mərkəzlərinin yaradılması | 2010-2011 | MdTN, RİTN, MN, İİN, YİHO, AO |
| 2.2.45. | Yaradılan milli elektron resurslarının qeydiyyatı üçün AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda "İnformasiya registri" bölməsinin yaradılması (kitabxanaların mövcud ştat vahidləri çərçivəsində, ictimai əsaslarla) | 2009 | AMEA, MdTN, RİTN, AO |
| 2.2.46. | "Heydər Əliyev Mərkəzi"ndə təşkil olunacaq kitabxanaya "Milli Kitabxana-İnformasiya Kompleksi" statusunun verilməsi | 2009 | NK, MdTN |
| 2.2.47. | Dünyanın böyük kitabxana mərkəzlərində saxlanılan diyarşünaslıq (ölkəşünaslıq) xarakterli qiymətli və nadir kitabların (əsli, yaxud surəti və elektron variantı) "Heydər Əliyev Mərkəzi"ndə toplanması ilə bağlı zəruri tədbirlərin təşkili | 2009 | NK, MdTN, XİN |
| 2.2.48. | 2009-cu ili kitabxanaların avtomatlaşdırılması ili elan edilməsi | 2008-2009 | MdTN |
| **2.3. Azərbaycan Respublikasının milli–mədəni irsinin və informasiya ehtiyatlarının qorunması və gələcək nəsillərə çatdırılması** | | | |
| 2.3.1. | Xüsusi əhəmiyyətli çap sənədlərini, nadir kitabları, diyarşünaslığa aid nəşrləri qoruyub saxlamaq və nəsillərdən-nəsillərə ötürmək məqsədi ilə onların informasiya daşıyıcılarına köçürülməsi | 2011-2012 | NK, MdTN, RİTN, AMEA, TKNDK |
| 2.3.2. | "Ədəbiyyat" qəzetinin bütün nömrələrinin informasiya daşıyıcılarına köçürülməsi və qəzetin 1934-1950-ci illər üzrə çatışmayan nömrələrinin bərpası | 2008-2010 | MdTN, AMEA, AYB-nin, "Ədəbiyyat qəzeti" redaksiyasının tövsiyələri nəzərə alınmaqla |
| 2.3.3. | Azərbaycanın kitab mədəniyyətinin qorunması və dünyaya tanıdılması məqsədi ilə layihələrin həyata keçirilməsi | 2009-2012 | MdTN, TN, AMEA, XİN, AO |
| 2.3.4. | Nazirlik, komitə və idarələrin kitabxanalarında saxlanılan Azərbaycan kitab abidələrinin inventarizasiyasının aparılması və uçotunun təşkili | 2009-2010 | MdTN, MAİ, AO |
| 2.3.5. | Tarixi əhəmiyyət kəsb edən milli nəşrlərin mühafizəsini təmin etmək məqsədi ilə böyük kitabxanalarda depozitar fondların yaradılması | 2010-2012 | MdTN, TKNDK |
| 2.3.6. | "Kitab irsi Azərbaycanın milli sərvətidir" adlı layihənin həyata keçirilməsi, Sankt-Peterburq, Moskva, Kazan, Tbilisi, Paris, London, Drezden kitabxanalarının arxivlərində mühafizə olunan Azərbaycanla bağlı diyarşünaslıq nəşrlərinin müəyyən edilməsi və surətlərinin Azərbaycana gətirilməsinin təşkili | 2009-2012 | MdTN, XİN, AO |
| 2.3.7. | Naxçıvan Muxtar Respublikasının kitab fondunun elmi ekspertizası və monitorinqi | 2008-2009 | MdTN, AO |
| 2.3.8. | Respublikanın regionlarında nəşr edilən yerli qəzetlərdə | 2008-2013 | MdTN, |

| | | | |
|---|---|---|---|
| | diyarşünaslığa dair materialların toplanması, qorunması məqsədi ilə onların biblioqrafik uçotunun aparılması, Əlifbanın kiril qrafikasından latın qrafikasına çevrilməsi, informasiya daşıyıcılarına köçürülməsi və zəruri materialların istifadəsinin təmin edilməsi | | RİTN, YİHO, AO |
| 2.3.9. | "Kitab xəzinəsi: qədim kitablar əlyazmaların uçotu və bərpası" adlı layihənin həyata keçirilməsi | 2008-2009 | MdTN, TN, AMEA, MAİ, AO |
| 2.3.10. | "Azərbaycanın kitab yaddaşı" adlı layihənin həyata keçirilməsi və müvafiq məlumat bazasının yaradılması | 2009-2011 | NK, MdTN, AMEA, TKNDK, AO |
| 2.3.11. | Nadir, qiymətli və aktual nəşrlərin informasiya daşıyıcılarına köçürülmə proqramının işlənib hazırlanması | 2009 | MdTN, TN, MAİ, AMEA, RİTN, AO |
| 2.3.12. | "Dirçələn fondlar" şüarı ilə milli kitab irsimizin mühüm tərkib hissəsi olan fondların aktivləşdirilməsi, kiril qrafika-sından latın qrafikasına çevrilməsinin həyata keçirilməsi və informasiya daşıyıcılarına köçürülməsi | 2008-2012 | MdTN, AMEA, TN, RİTN, YİHO, AO |
| **2. 4. Kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi, onun forma və məzmunca yeniləşdirilməsi** | | | |
| 2.4.1. | Respublikanın uşaq kitabxanalarında uşaqların informasiya tələbatı probleminin həlli məqsədi ilə monitorinqlərin keçirilməsi | 2008-2010 | MdTN, RİTN, TN, YİHO |
| 2.4.2. | İslam Konfransı Təşkilatı dövlətlərinin kitabxanaları ilə informasiya mübadiləsinin həyata keçirilməsi | 2008-2012 | MdTN, XİN, AO |
| **2.5. Kitabxana şəbəkəsinin idarəetmə strukturunun təkmilləşdirilməsi, şəbəkənin optimallaşdırılması və kadr islahatlarının həyata keçirilməsi** | | | |
| 2.5.1. | Kitabxana işini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi | 2008-2009 | NK, MdTN, AMEA, AO |
| 2.5.2. | F.Köçərli adına Respublika Uşaq Kitabxanasına Milli Uşaq Kitabxanası statusunun verilməsi | 2009 | NK, MdTN |
| 2.5.3. | Kitabxanaçıların təhsili, o cümlədən ixtisaslarının artırılması ilə bağlı zəruri tədbirlərin təşkili | 2009-2013 | MdTN, TN, YİHO, AO |
| 2.5.4. | "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xarici ölkələrin ali məktəblərinin magistratura şöbələrində milli kitabxanaçı kadrların hazırlığının təşkili məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi | 2008-2013 | NK, MdTN, TN, XİN |
| 2.5.5. | "Kitabxanalar milli mədəniyyətin dirçəliş resursudur" mövzusunda respublika müşavirəsinin keçirilməsi | 2009 | MdTN, TN, AMEA, TKNDK |
| 2.5.6. | Bakı şəhərində ilk kitabxana-qiraətxananın 115 illiyinə həsr edilmiş "İlk kütləvi kitabxanalar-tarixdən müasirliyə qədər" mövzusunda tədbirin keçirilməsi | 2008 | MdTN, YİHO, TKNDK |
| 2.5.7. | Naxçıvan MR-da "Gənc peşəkarlar cəmiyyətə xidmət edir" mövzusunda gənc kitabxanaçıların forumunun keçirilməsi | 2011 | MdTN, AO |
| 2.5.8. | Tabeliyindən asılı olmayaraq kitabxanalar arasında müxtəlif nominasiyalar üzrə müsabiqələrin keçirilməsi ("İlin nümunəvi Mərkəzləşdirilmiş Kitabxana Sistemi", 'Ən yax şı | 2008-2013 | MdTN, YİHO, AO |

| | | | |
|---|---|---|---|
| | kitabxanaçı", "Yaradıcı təkamül müəssisəsi", "İçərişəhər Azərbaycan mədəniyyətinin incisidir", "İlin ən yaxşı kitabxanası" və s.) | | |
| 2.5.9. | Azərbaycan Respublikasının kitabxana mütəxəssisləri haqqında məlumat bazasının yaradılması və internetdə yerləşdirilməsi | 2008-2013 | MdTN, TKNDK |
| 2.5.10. | Azərbaycan Respublikasında kitabxanaçı kadrlara tələbatın öyrənilməsi və məzunların yerləşdirilməsi sisteminin yaradılması | 2008-2013 | MdTN, TN, YİHO, AO |
| | **2.6. Kitabxana işi sahəsində elmi tədqiqatların aparılması, kitabların hazırlanması və nəşri** | | |
| 2.6.1. | Respublika kitabxana şəbəkəsinin pasportlaşdırılması ilə əlaqədar illik statistik məlumat toplularının hazırlanması və nəşr edilməsi | 2008-2013 | MdTN, TN, YİHO TKNDK, AMEA |
| 2.6.2. | Dünya kitabxana standartlarının tərcüməsi və onların əsasında Milli Kitabxana standartlarının hazırlanması | 2008-2013 | MdTN, SMPDA, TN, AMEA, TKNDK |
| 2.6.3. | Avropa Şurasının sənədləri əsasında "Mədəniyyət siyasəti bu gün: strategiyanın seçilməsi və Avropa Birliyinin istiqamətləri" adlı materialların nəşr edilməsi | 2009 | MdTN, XİN AO |
| 2.6.4. | Kitabxana-informasiya sahəsinə və kitabxanaşünaslığa dair elmi araşdırmaların aparılması və sosioloji sorğuların keçirilməsi | 2008-2013 | MdTN, TN, AMEA |
| 2.6.5. | Milli kataloqlaşdırma qaydalarının, təlimatlarının tərtibi və nəşr edilməsi | 2008-2009 | MdTN, TN, SMPDA, AMEA, AO |
| 2.6.6. | "Ədəbiyyat qəzeti"nin biblioqrafik göstəricisinin tərtib edilməsi (qəzetin 75 illik yubileyi ilə əlaqədar) | 2008-2009 | AMEA, AYB-nin, "Ədəbiyyat qəzeti" Redaksiyasının tövsiyələri nəzərə alaraq |
| 2.6.7. | Kütləvi kitabxanalar üçün Universal Onluq Təsnifatının uyğunlaşdırılmış variantının hazırlanması | 2010 | MdTN, TN, SMPDA, AMEA |
| 2.6.8. | Respublika əhəmiyyətli kitabxanaların veb-saytlarında Azərbaycanın turizm gözəlliklərinin təbliği və bu sahədə dünya kitabxanaları ilə informasiya mübadiləsinin həyata keçirilməsi | 2008-2013 | MdTN, TKNDK |
| 2.6.9. | Ümummilli lider Heydər Əliyevin "Müst əqilliyimiz əbədidir" çoxcildli kitabının biblioqrafik göstəricisinin və elektron nəşrinin hazırlanması | 2008-2010 | MdTN, TN, AMEA, AO |
| 2.6.10. | "Azərbaycan kitabxanaları XXI əsrin əvvəllərində" adlı sənədli filmin hazırlanması | 2009 | MdTN, TKNDK, AO |
| 2.6.11. | Azərbaycanın mədəniyyəti, incəsənəti, ədəbiyyatı haqqında ən çox istifadə edilən kitabların elektron nəşrinin hazırlanması və internetdə yerləşdirilməsi | 2009-2010 | MdTN, TN, RİTN, TKNDK |

| | | | |
|---|---|---|---|
| 2.6.12. | Ümummilli lider Heydər Əliyev haqqında ən çox soruşulan kitabların informasiya daşıyıcılarına köçürülməsi | 2008-2009 | MdTN, RİTN, TKNDK, AO |
| 2.6.13. | Azərbaycanın klassik musiqi əsərləri yazılmış qramofon vallarının informasiya daşıyıcılarına köçürülməsi | 2009-2011 | MdTN, AO |
| 2.6.14. | İşğal olunmuş ərazilərdə məhv edilmiş kitabxanalar haqqında ətraflı məlumatların hazırlanması və onların beynəlxalq təşkilatlara göndərilməsi | 2008-2009 | MdTN, TN, QMKİDK, AO |
| 2.6.15. | Kitabxana-informasiya terminlərinin izahlı lüğətinin nəşr edilməsi | 2009 | MdTN, RİTN, TKNDK |
| 2.6.16. | Kitabxana Ensiklopediyasının Azərbaycan dilinə tərcümə edilməsi | 2008-2009 | MdTN |
| 2.6.17. | Kitabxana fəaliyyətinin monitorinq sisteminin təşkili | 2008-2013 | MdTN, YİHO, TKNDK, AO |
| **2.7. Yeni kitabxana binalarının tikilməsi, yeni və fəaliyyət göstərən kitabxanaların maddi-texniki bazasının müasir tələblərə uyğun möhkəmləndirilməsi** | | | |
| **Respublika əhəmiyyətli kitabxanalar üzrə** | | | |
| 2.7.1. | C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əsaslı təmiri, modernləşdirilməsi, avadanlıqla və avtomatlaşmış kitabxana-informasiya sistemi (AKİS) ilə təchiz edilməsi | 2008-2010 | MdTN |
| 2.7.2. | Gözdən Əlillər üçün Respublika Kitabxanasının müasir avadanlıqla təchiz edilməsi | 2010 | NK, MdTN |
| **Respublikanın şəhər və rayonları, Naxçıvan MR üzrə** | | | |
| 2.7.3. | Qəza vəziyyətində olan və şəxsi evlərdə yerləşən kitabxanalar üçün yeni binaların tikilməsi | 2010-2013 | NK, MdTN, YİHO |
| 2.7.4. | Təmiri zəruri hesab edilən kitabxanaların əsaslı təmiri, modernləşdirilməsi, inventar və avadanlıqla təchiz edilməsi | 2008-2013 | NK, MdTN, YİHO |
| 2.7.5. | Mərkəzi kitabxanaların avtomatlaşmış kitabxana-informasiya sistemi (AKİS) ilə təchiz edilməsi | 2008-2013 | NK, MdTN, YİHO |
| 2.7.6. | Yeni dislokasiya xəritəsi əsasında (kitabxanası olmayan yeni salınmış qəsəbə, kənd və digər yaşayış massivlərində) kitabxanalar üçün binaların tikilməsi | 2010-2013 | NK, MdTN, YİHO |
| **2.8. Kitabxanaların beynəlxalq əlaqələrinin inkişafı və beynəlxalq tədbirlərin təşkili** | | | |
| 2.8.1. | YUNESKO-nun "İnformasiya hamı üçün" Proqramının Azərbaycan komitəsinin təşkili | 2008-2009 | NK, MdTN, XİN, TKNDK |
| 2.8.2. | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar "Heydər Əliyev Mərkəzi-Milli yaddaşımızın Mərkəzidir" mövzusunda Bakıda kitabxanaçıların beynəlxalq simpoziumunun təşkili | 2013 | NK, MdTN, AMEA |
| 2.8.3. | Dünyanın böyük kitabxanalarında və informasiya mərkəzlərində Azərbaycan guşələrinin yaradılması, kitab sərgilərinin və təqdimatlarının keçirilməsi | 2008-2013 | MdTN, XİN, XÖYAİDK |

| | | | |
|---|---|---|---|
| 2.8.4. | Rusiya Federasiyasının Moskva şəhərindəki “Puşkin Kitabxanası” meqalayihəsinin iş təcrübəsinin öyrənilməsi və Azərbaycanda kitabxanaların zəruri ədəbiyyat və elektron informasiya daşıyıcıları ilə təmin etmək məqsədi ilə “Nizami” layihəsinin təşkili | 2008-2009 | MdTN, TKNDK |
| 2.8.5. | Kitabxana sahəsinin zəruri istiqamətləri üzrə keçirilən konfranslarda Azərbaycan kitabxanaçılarının iştirakının təmin edilməsi (Krım, İFLA-nın illik, LİBKOM, Anapa, Soçi və s. konfransları) | 2008-2013 | MdTN, XİN, TN, AMEA, TKNDK |
| 2.8.6. | ABŞ, Avropa və MDB ölkələri kitabxanalarının avtomatlaşdırma, fondların bərpası və mühafizəsi, habelə UNİMARC formatının tətbiqi sahəsində təcrübələrin öyrənilməsi | 2013 | MdTN, XİN, TN, AMEA TKNDK |
| 2.8.7. | Azərbaycan və Rusiya kitabxanaçılarının qarşılıqlı təcrübə mübadiləsinin təşkili. Azərbaycan kitabxanaçılarının Buryatiya Respublikasına və digər regionlara ezam olunması | 2008-2013 | MdTN, XİN, AO |
| 2.8.8. | Ölkədə Kitabxanalararası Abonement Sisteminin optimallaşdırılması | 2008-2012 | MdTN, AO |
| **2. 9. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi** | | | |
| 2.9.1. | Modernləşdirilmə məqsədi ilə maddi-texniki bazanın möhkəmləndirilməsi və müasir (yeni) informasiya texnologiyaları ilə təchizat | 2008-2010 | MdTN |
| 2.9.2. | Mövcud elektron kataloq və elektron kitabxana sistemlərinin təkmilləşdirilməsi | 2008-2009 | MdTN |
| 2.9.3. | Kitabxana fondunun, oxu zallarının, xidmət bölmələrinin və mətbəənin müasir tipli inventar və avadanlıqlarla təchizatı | 2008-2009 | MdTN |
| 2.9.4. | Zəruri nəqliyyat vasitələri ilə təchizat | 2009-2010 | MdTN |
| 2.9.5. | Kitabxana binasının müasir standartlar səviyyəsində yenidən qurulması | 2008-2010 | MdTN |
| 2.9.6. | Kitab fondlarının bərpası və konservasiyasının həyata keçirilməsi | 2008-2010 | MdTN |

**Akronimlər**

| | |
|---|---|
| Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | AQUPDK |
| Azərbaycan Milli Elmlər Akademiyası | AMEA |
| Aidiyyəti orqanlar | AO |
| Azərbaycan Yazıçılar Birliyi | AYB |
| Dövlət Statistika Komitəsi | DSK |
| Ekologiya və Təbii Sərvətlər Nazirliyi | ETSN |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | ƏƏSMN |
| Ədliyyə Nazirliyi | ƏO |
| Xarici İşlər Nazirliyi | XİN |
| Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi | XÖYAİDK |
| Beynəlxalq Kitabxana Assosiasiyası | İFLA |
| İqtisadi İnkişaf Nazirliyi | İİN |
| Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | QMKİDK |
| Azərbaycan Respublikasının Nazirlər Kabineti | NK |
| Mədəniyyət və Turizm Nazirliyi | MdTN |
| Milli Arxiv İdarəsi | MAİ |
| Maliyyə Nazirliyi | MN |
| Nəqliyyat Nazirliyi | NN |
| Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | RİTN |
| Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi | SMPDA |
| Tabeliyində kitabxanalar olan nazirlik və dövlət komitələri | TKNDK |
| Təhsil Nazirliyi | TN |
| Beynəlxalq Avtomatlaşdırılmış Kataloqlaşma Formatı | UNİMARC |
| Vergilər Nazirliyi | VN |
| Yerli icra hakimiyyəti orqanları | YİHO |